Qonağı Təhsil Nazirliyində görməkdən məmnunluq duyduğunu bildirən Misir Mərdanov bu günlərdə Yaponiyaya etdiyi səfər, təhsil sahəsində səmərəli əməkdaşlığın yaradılması üzrə keçirdiyi görüşlər barədə məlumat verib.

Sonra nazir qarşılıqlı əlaqələrin qurulması istiqamətlərindən danışıb, Bakı şəhərindəki bir və ya iki məktəbdə yapon dilinin xarici dil kimi tədrisi, azərbaycanlı gənclərin Yaponiyanın nüfuzlu ali təhsil müəssisələrində təhsili, peşə təhsili üzrə əməkdaşlığın yaradılması məsələlərinə toxunub. Nazir həmçinin qonağa ölkə Prezidentinin Sərəncamı ilə təsdiq olunan "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində görülən və qarşıda duran işlər haqqında məlumat verib. Eyni zamanda nazir "Ot kökləri və insan təhlükəsizliyi" qrant yardımı proqramı üzrə təhsil sahəsinə dair həyata keçirilən tədbirlərə görə təşəkkür edib.

Cənab Masamitsu Oki nazirin qeyd etdiyi məsələlərə münasibət bildirib. Yapon dilinin orta məktəblərdə tədris olunması məsələsini yüksək dəyərləndirən səfir azərbaycanlı gənclərin Yaponiya universitetlərində təhsil almasına dəstək göstərməyə hazır olduqlarını diqqətə çatdırıb.

Görüşdə tərəflər Azərbaycan ilə Yaponiya universitetləri arasında əməkdaşlığın yaradılması, eləcə də qeyd olunan digər məsələlərlə bağlı müvafiq işlərin aparılması istiqamətində müzakirələr ediblər.